# Yubilyarla görüş



*“Şer mənim üçün bir kainatdır,
Onun ulduzları, günəşləri var.
Şer mənim üçün sirli həyatdır,
Onun öz sevinci, öz kədəri var”.*
*N.Xəzri*

Dəvətnaməni əlimə alanda sevincimin həddi-hüdudu yoxdu. Sevimli şairimiz N.Xəzri ilə görüşə gedəcəkdim.

Nəbi Xəzri lirik şairdir. Nəbi Xəzri lirikasını isə məhəbbətsiz təsəvvür etmək mümkün deyil. Şair məhəbbətin əzab və iztirablarını əlvan boyalarla oxucuya çatdırır.

Sevimli şairimizin şerlərinin mövzusu geniş və dərindir: təbiət, onun gözəllikləri, kainat, onun möcüzəli sirləri, keşməkeşli həyatımızın hər sahəsinə aid şerləri insanı düşünməyə vadar edir.

Nəbi Xəzri bəzən ən adi, ötəri hadisələri, müşahidə etdiyi mənzərələri poeziya dili ilə qələmə alır. Şairi daim həyat problemləri düşündürür. Bu sadə, səmimi, haqq danışan insanı bu problemlər rahat buraxmır və o, düşüncələrini ağ vərəqlərə köçürməklə təskinlik tapır.

Onun dəniz, göy, məhəbbət silsiləsindən olan şerləri sevilə-sevilə oxunur.

“Ömür yoldaşı, “Bacı”, M.Ş.Vazehə həsr edilmiş “Heykəlsiz abidə”dəki sənədli risətlər, “Sevil Qazıyevaya” həsr olunmuş “Günəşin bacısı”, “Ürək”, “İki təpə” və s. poemalarındakı insan taleyi, onun mübarizəsi, əzab və əziyyətləri real boyalarla təsvir olunmuşdur. Şairin hər ifadəli sözü qəlbləri göynədir.

Azərbaycan Dövlət Dram teatrında səhnəyə qoyulan “Əks-səda”, “Sən yanmasan”, “Burlaxatun” kimi pyesləri daim repertuarlardan düşmür.

Nəbi Xəzri oxunan, sevilən şairdir. Şairin dillər əzbəri olan “Ay ürək”, “Külək”, “Dərələr”, “Mavidir”, “Sən və mən”, “Sən getdin”, “İkilikdə”, “Təzə il”, “Abşeron”, “Qonşuda qız sevənin”, “Səhər” kinofilmindən Aslanın mahnısı və s. mahnıları sevilə-sevilə oxunur.

Şair şirin-şəkər balalarımızı da unutmur. Onlar üçün də bir-birindən maraqlı, uşaq təxəyyülünə uyğun şerlər yazıb.

Bu da A.M.Şərifzadə adına Aktyor evi. Çoxdan qalxmadığım pillələri indi həyəcanla qalxmağa başladım. Aram addımlarla akt zalına yaxınlaşdım. İçəridən N.Xəzrinin sözlərinə bəstələnmiş “Dərələr” mahnısı rəhmətlik Şövkət Ələkbərovanın ifasında lent yazısı səslənirdi. Dəvət olunmuş qonaqlar yığışdılar. Məclisi Teatr Xadimləri İttifaqının sədri Azərpaşa Nemətov açaraq Nəbi Xəzrinin bu əlamətdar gününə gələnləri salamladı və böyük bir səmimiyyətlə yubilyarı təbrik etdi. Sonra məclisi aparmaq üçün sözü teatrşünas İlham Rəhimliyə verdi.

İlham Rəhimli şairin şerlərindəki həyat, insanlıq, məhəbbət haqqında fəlsəfi düşüncələri, doğma yurda bağlılıq, heyranlıq hisslərindən söz açdı. Nəbi müəllimin uzun müddət işlədiyi “Dostluq cəmiyyəti” - “Xaricdə yaşayan həmvətənlərlə əlaqələr” cəmiyyətindəki xeyirxah əməllərindən danışdı. Sonra çıxışlar başlandı.



Yazıçı-publisist Bəkir Nəbiyev, rejissor Ağakişi Kazımov, akademik Budaq Budaqov, “Space” telekanalının prezidenti Etibar Məmmədov, ədəbiyyatşünas Arif Hacıyev və başqaları çıxış edərək, şairlə bağlı xatirələrini, səfər təəssüratlarını söylədilər və Nəbi müəllimi səmimi qəlbdən təbrik etdilər.

Növbəti söz bədii ifaçılara verildi. Şerlərimizin gözəl ifaçısı olan aktrisamız Əminə Yusifqızının ifasında şairin bir neçə şeri, Azərbaycan Dram Teatrının aktyoru Rafiq Əzimovun ifasında şairin “Burlaxatun” pyesindən bir parça səsləndi. Aktyorlar da öz növbələrində Nəbi Xəzri ilə tamaşaların məşqi zamanı necə səmimi işləmələrindən böyük vurğunluqla danışdılar.

“Türk-Azərbaycan” kanalının əməkdaşı Maisə xanım öz yaradıcı kollektivi ilə şairi təbrik etdi və öz ürək sözlərini ona ünvanladı.

Sonda söz sevimli şairimizin özünə verildi. O, sakit tərzdə, böyük vurğunluqla neçə şerini söylədi.

Məclisdə aktyorlardan Sənubər İsgəndərli, İlham Namiq Kamal, Firdovsi Naibov, Almaz Əhmədova, İftixar Piriyev və başqaları iştirak edirdilər. Gələn qonaqların hamısı çıxış etməsə də Nəbi müəllimi təbrik etməyə gələn bütün sənət dostları, onu sevənlər - yazıçılar, aktyorlar, incəsənət universitetinin tələbələri onu böyük hərarətlə alqışlayırdılar.

Məclis qurtaranda bu sadə, səmimi insanla, sevimli şairimizlə xatirə şəkilləri çəkdirdik.

**Nazilə İmranlı**